

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 132 (23.774)

*24 iyul 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Dövlət Universitetində 2021-ci ilin altı ayının yekunlarına və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasından irəli gələn vəzifələrə həsr olunmuş iclası universitetin rektoru Elbrus İsayev açıb. Qeyd edilib ki, bəhs olunan dövrdə universitetin maddi-texniki bazası gücləndirilib, ən müasir elm və təhsil infrastrukturu formalaşıb. Xarici dillər fakültəsinin istifadəyə verilən tədris korpusu dünya standartlarına tam cavab verən mərkəz və kabinələrlə əsaslı şəkildə yenidən qurulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə yeni laboratoriya və kabinələr, "Yaşıl Əczaxana" yaradılıb. 10 fakültə, Magistratura mərkəzi, Xarici tələbələrlə iş üzrə dekanlığın fəaliyyət göstərdiyi universitetin bakalavr pilləsində 63 ixtisas üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. 2021-ci ildə universitetin əməkdaşlarından 1 nəfər elmlər doktoru elmi dərəcəsi alıb, 1 nəfərin professor, 4 nəfərin isə dosent elmi adları almaları üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılıb. Bununla yanaşı, hazırda fəlsəfə doktoru proqramı üzrə 85, elmlər doktoru proqramı üzrə isə 22 nəfər doktorant və dissertant vardır. Onlardan bir nəfəri Koreya, bir nəfəri isə Türkiyə vətəndaşıdır.

Vurğulanıb ki, Erasmus+proqramı çərçivəsində "Təhsildə keyfiyyətin təminatı" və "Səhiyyədə risklərin idarə olunması, peşə və kadr hazırlığı" olmaqla, 2 layihə qazanılıb. Bundan başqa, Naxçıvan Dövlət Universitetindən bir müəllim Erasmus+ layihəsi çərçivəsində Rumıniyanın Alexandru Ioan Cuza Universitetinə birhəftəlik mübadilə proqramında iştirak etmək hüququ qazanıb. Bununla yanaşı, Mövlana tələbə-müəllim mobilliyi proqramı çərçivəsində də Türkiyə universitetləri ilə əlaqələr təmin edilib.

2020-2021-ci tədris ilində Boloniya prosesinin tələblərinə uyğun olaraq təhsilin kredit sistemi ilə təşkilindən danışan rektor onu da vurğulayıb ki, ali təhsil ocağında 2021-ci ilin altı ayı ərzində "Duzdağ" mövzusunda beynəlxalq konqres, "Alternativ tibb metodunun tətbiqi" və "Təhsildə rəqəmsallaşdırma: elektron təhsil və informasiya cəmiyyəti" mövzularında isə respublika elmi konfransları keçirilib.

2021-ci ilin birinci yarısında universitet əməkdaşlarının 18 dərs vəsaiti, 2 kitabı, 33 metodik vəsait və proqramı, 100 elmi məqaləsi və 136 konfrans materialı çap olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılmasının əhəmiyyətindən danışan rektor diqqətə çatdırıb ki, 2020-2021-ci tədris ilində universitetdə tədris dili ingilis dilində olan İqtisadiyyat ixtisası açılaraq tədrisin keyfiyyəti daha da artırılıb.

Qeyd edilib ki, dünya təhsil sisteminə inteqrasiya edən universitetdə hesabat dövründə 10 fakültə üzrə bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 63 ixtisas üzrə 5588 tələbə, magistratura təhsil səviyyəsində 81 ixtisaslaşma üzrə 348 magistrant və rezidentura üzrə 52 nəfər rezident təhsil alıb ki, onlardan 986-sı xarici ölkə vətəndaşıdır.

Universitet tələbələri I Startap və "İqtisadi sahədə startap layihələri" müsabiqələrində uğurla çıxış ediblər, "Enactus Onlayn Sahibkarlıq" müsabiqəsində universitet Enactus komandasının təqdim etdiyi layihə müsabiqənin qalibi olub. Hesabat dövründə hami təşkilatlarla birgə 16 tədbir keçirilib.

Bildirilib ki, 2021-ci ildə universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində əhəmiyyətli işlər görülüb, dünyanın qabaqcıl təhsil müəssisələri ilə əlaqələrin qurulması və möhkəmləndirilməsi, müəllim və tələbə mobilliyinin təşkil olunması sahəsində mühüm addımlar atılıb. Azərbaycanda akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin rəhbər və təmsilçiləri Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub və təmsil etdikləri ölkələrin universitetləri ilə əlaqələrin qurulması və inkişaf etdirilməsi sahəsində bir sıra müzakirələr keçirilib. Bildirilib ki, bütün bunlarla yanaşı, ali təhsil ocağı beynəlxalq layihələrdə də uğurla təmsil olunur.



*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasından irəli gələn vəzifələrə, nazirliyin 2021-ci ilin birinci yarım ilində gördüyü işlərə dair kollegiya iclası keçirilib.*

Kollegiyanı Naxçıvan Muxtar Respublikası iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq bildirib ki, muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı 2021-ci ilin birinci yarım ilində də davam etdirilib, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşıb, yerli sahibkarlığın inkişafı yolu ilə yeni iş yerləri açılıb, əhalinin maddi rifah halı yüksəlib.

2021-ci ilin 6 ayı ərzində dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 55 istehsal və xidmət sahəsi istifadəyə verilib, bu dövr ərzində sənaye sahəsinin inkişafının stimullaşdırılması üçün Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3 layihənin maliyyələşdirilməsinə 110 min manat dövlət maliyyə dəstəyi göstərilib.

Vurğulanıb ki, 2021-ci ilin ilk yarım ili ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatının inkişafı yönümlü 56 layihənin maliyyələşdirilməsinə 1 milyon 404 min 850 manat məbləğində dövlət maliyyə dəstəyi göstərilib. Həmçinin "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaiti hesabına ümumi tutumu 800 ton olan yeni soyuducu anbarın yaradılması başa çatdırılıb.

Əhalinin ərzaq məhsulları ilə təmin olunması istiqamətində ailə təsərrüfatlarının rolundan bəhs edən nazir diqqətə çatdırıb ki, 2021-ci ilin birinci yarım ili ərzində 34 ailə təsərrüfatına 519 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 2100-dən artıq 27 çeşiddə tara ilə təmin olunub. İstehsal edilmiş məhsulların keyfiyyətinə nəzarətin və ixracının təmin edilməsi məqsədilə 2021-ci ilin 6 ayı ərzində Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 178 halda ailə təsərrüfatı məhsullarında laboratoriya analizləri aparılıb. Bu sahədə verilmiş tapşırıqların tam icrası məqsədilə qarşıdakı dövrdə muxtar respublikanın bütün rayonlarının imkanlarını təhlil etməklə çoxsahəli ailə təsərrüfatlarının formalaşdırılması istiqamətində layihələrin hazırlanması davam etdiriləcək.

Bildirilib ki, cari ilin birinci yarım ili ərzində sahibkarlığın inkişafı iqtisadi siyasətin üstün istiqamətlərindən olmuş, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, özəl sektora dövlət dəstəyinin artırılması ciddi nailiyyətlərin əldə olunmasına şərait yaradıb. Ötən müddət ərzində sahibkarların maliyyə təminatı yaxşılaşıb, güzəştli kreditlərin həcmi artıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2021-ci ilin 6 ayı ərzində 60 layihənin maliyyələşdirilməsinə 1 milyon 542 min manat həcmində dövlət maliyyə dəstəyi ayrılıb.

Muxtar respublikanın ixrac potensialının genişləndirilməsi ilə bağlı məsələlərə toxunan nazir vurğulayıb ki, cari ilin 6 ayı ərzində 8-i onlayn formatda olmaqla, ümumilikdə, 17 beynəlxalq əhəmiyyətli tədbirdə 38 sahibkarlıq subyektinin 52 nümayəndəsinin iştirakı təmin edilib. İnvestisiya qoyuluşu və ixracın stimullaşdırılması məqsədilə 3 milyon 108 min 212 manat dəyərində bir investisiya layihəsi üzrə investisiya təşviqi və təsdiqedici sənədi verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında nazir Niyazi Novruzov çıxış edərək bildirib ki, 2021-ci ilin birinci yarısında muxtar respublikada Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun Şərur və Şahbuz rayon şöbələri müasir tibbi avadanlıqlarla təchiz edilərək yeni binalara köçürülmüşdür. Şərur rayon Şəhriyar, Ordubad rayon Yuxarı Əndəmic və Nüsnüs, Şahbuz rayon Ağbulaq kənd həkim ambulatoriyaları yeni tikilmiş, Ordubad Rayon Uşaq Xəstəxanası isə yenidənqurmadan sonra bütün ehtiyac olan avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir.

Vurğulanıb ki, dezinfeksiya işlərini daha da yaxşılaşdırmaq üçün 2 ədədi Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə və 7 ədədi rayon şöbələrinə olmaqla, gigiyena və epidemioloji xidmətə 9 ədəd maşın verilmişdir.

Nazir hesabat dövründə səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası diqqət mərkəzində saxlanıldığından bəhs edərək kadr hazırlığı və səhiyyə müəssisələrinin müasir avadanlıqlarla təchiz olunması sahəsində tədbirlərin davamlı xarakter aldığını bildirib, insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görüldüyünü qeyd edib. Diqqətə çatdırılıb ki, səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Hesabat dövrü ərzində Səhiyyə Nazirliyinin müəssisələrində də müəyyən işlər görülmüşdür.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar, səhiyyənin inkişafı demoqrafik vəziyyətə öz kəskin təsirini göstərmişdir. Belə ki, muxtar respublikada 2021-ci ilin 6 ayında 2036 uşaq doğulmuş, 1383 ölüm hadisəsi qeydə alınmış, təbii artım 653 nəfər, doğum göstəricisi 4,4, ölüm göstəricisi 3, 1 yaşa qədər uşaq ölümü 6 nəfər olmaqla, 3 promilli təşkil etmişdir.

Nazir əmin olduğunu bildirib ki, bütün tibb işçiləri Ali Məclis Sədrinin tapşırıq və tövsiyələrini əldə əsas tutaraq əhalinin sağlamlığı naminə əzmkarlıqla, nöqsansız işləyəcək, 2021-ci ilin II yarısı və bundan sonrakı illərdə də daha yüksək nəticələrə nail olacaqlar.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasında nazir müavini Məcid Seyidov bildirib ki, 2021-ci ilin I yarım ili ərzində nazirlik tərəfindən gənclərlə iş və idman sahəsində 133 tədbir keçirilib, bunlardan 67-si gənclərlə iş, 66-sı isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib.

Bildirilib ki, ötən dövr ərzində yeniyetmə və gənclərin intellektual bilik və bacarıqlarının yüksəldilməsi, Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması, tariximizin öyrənilməsi, təhlili və gələcək nəsillərə çatdırılması, qədim diyarımızın tanıdılmasında rollarının artırılması, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə bir sıra tədbirlər keçirilib.

Vurğulanıb ki, 2021-ci ilin 6 ayı ərzində nazirlik tərəfindən muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, ötən ilin avqust ayından inşasına başlanılmış Uzunoba Təlim-Məşq İdman Kompleksinin aprelin 3-də Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilməsi "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası baxımından mühüm əhəmiyyət daşıyır. Kəngərli rayonunda özəl investisiya qoyuluşu hesabına fitnes zalı fəaliyyətə başlayıb, Qabıllı kəndində yeni minifutbol stadionu tikilərək istifadəyə verilib, Ordubad Rayon Mərkəzi Stadionun tikintisi istiqamətində işlər davam etdirilib. Kişilər və qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatlarına ölkə idmanı tarixində ilk dəfə olaraq muxtar respublikamızın ev sahibliyi etməsi, şahmatçılarımızın Serbiyada keçirilən beynəlxalq turnirdə uğur qazanması, Ali Məclis Sədrinin gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə Nazlı Hümbətovanın adının Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilməsi, yeniyetmə idmançımız Sadiq Kərimovun Ukraynada keçirilən universal döyüş növləri üzrə dünya kubokunun qalibi olması, Bakı şəhərində atletikanın qaçış növü üzrə Azərbaycan çempionatları və pauerliftinq üzrə Qran-pri turnirində muxtar respublika idmançılarının iştirakının təmin edilməsi, təmsilçilərimizin bu yarışlarda 3 qızıl və 1 bürünc medal əldə etməsi, Türkiyə alpinistlərinin Haçadağa yürüşü, şahmatçıların onlayn formatda keçirilən beynəlxalq yarışlarda, məşqçilərin isə nəzəri-praktik kurslarda iştirakının təmin olunması, hakimlər üçün təlim-məşq toplanışları və seminarların təşkili muxtar respublikada idmanın inkişafına göstərilən diqqətin bəhrələridir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasında komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli qeyd edib ki, hesabat dövrü ərzində gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin və daxili bazarın qorunması, hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi, ixracın stimullaşdırılması və gömrük xidmətinin keyfiyyətinin artırılması istiqamətində fəaliyyəti davam etdirilib.

Vurğulanıb ki, hesabat dövrü ərzində muxtar respublika gömrük orqanları tərəfindən dövlət büdcəsinin formalaşdırılması üçün müəyyən olunmuş 12 milyon 798 min manata qarşı, 14 milyon 275 min manat vəsait toplanaraq proqnoz tapşırığa 111,5 faiz əməl edilib. Nağdsız əməliyyatların həcminin artırılması üçün gömrük orqanlarında ödəmə terminallarından istifadə diqqətdə saxlanılıb.

Muxtar respublikada xarici ticarət dövriyyəsinin vəziyyətini təhlil edən komitə sədri xarici ticarət əlaqələrinin genişləndiyini, ixrac potensialının gücləndiyini önə çəkib. Qeyd olunub ki, hesabat dövründə 60 ölkə ilə ticarət əməliyyatı aparılıb, ixracın həcmi 57,8 faiz artıb.

Əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət nəticəsində gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizənin gücləndirildiyini vurğulayan komitə sədri yeni risk profillərinin formalaşdırılması ilə risklərin idarə olunması işinin səmərəliliyinin artırıldığını qeyd edib.

İclasda vurğulanıb ki, daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması, idxal olunan məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi, azad rəqabət mühitinin yaradılması və inhisarçılığın qarşısının alınması istiqamətində də fəaliyyəti davam etdirilib. 2021-ci ilin muxtar respublikamızda "İxrac ili" olması ilə əlaqədar ixrac olunan bütün malların güzəştli formada rəsmiləşməsi təmin edilib, kənd təsərrüfatı məhsullarının ixracına köməklik göstərilib, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən ixracatçıların sayının artırılması ilə muxtar respublikanın ixrac potensialının gücləndirilməsinə dəstək verilib. Dövlət proqramlarının icrası ilə əlaqədar xaricdən yerli istehsal sahələrinin və ailə təsərrüfatlarının formalaşdırılması və inkişaf etdirilməsi üçün gətirilən mallara gömrük güzəştləri tətbiq olunub.

Pandemiyaya qarşı mübarizə və ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin olunması məqsədilə muxtar respublikanın bütün gömrük sərhəd-buraxılış məntəqələrində dezinfeksiya işləri müntəzəm şəkildə aparılıb, lazımi profilaktik tədbirlər davam etdirilib.

Gömrük orqanlarında kadr potensialının gücləndirilməsi və əməkdaşların peşəkarlığının artırılması məqsədilə ixtisaslaşma və təkmilləşmə proqramlarının həyata keçirildiyini vurğulayan komitə sədri "Avtonəqliyyat vasitələri üzərində gömrük baxışının aparılması" mövzusunda təlimlərdə 84 əməkdaşın iştirak etdiyini, hazırda "Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili" mövzusunda təlimlərin davam etdirildiyini qeyd edib.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Dövlət Gömrük Komitəsinin üzərinə qoyulmuş tapşırıqların yerinə yetirilməsi istiqamətində kollektivin səy və əzmkarlıqla çalışacağını bildirən komitə sədri daxili bazarın qorunması və idxalın tənzimlənməsi ilə bağlı verilmiş tapşırıqların icrasının nəzarətdə saxlanılacağını qeyd edib.

Kollegiya iclasında məruzə və hesabatlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası fəaliyyətini qarşıya qoyulan vəzifələrin icrası istiqamətində davam etdirib. 18 yanvar 2021-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası Məclisinin birinci iclası keçirilmiş, şuranın və tabe təşkilatların 2021-ci ilə dair illik statistik hesabatları tərtib və təsdiq edilmiş, şuraya toplanan üzvlük haqlarına nəzarət gücləndirilmiş, daxil olan ərizə və şikayətlərə vaxtında və qanunun tələbləri əsasında baxılmışdır. Bu müddətdə kollektiv müqavilələr yenilənmiş, ittifaq üzvlərinin sağlamlığının qayğısına qalınmış, onlar kurort və sanatoriya yollayışları ilə təmin edilmiş, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tövsiyə xarakterli məktublarının icrası təmin edilmişdir.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada gənclərin fəallığını təmin etmək, rəhbər orqanlarda təmsil olunmalarına şərait yaratmaq, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunması üçün əsaslı şərait yaradılıb. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sıralarında gənclərin say tərkibi 30 faizdən yuxarıdır.

Qeyd olunub ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin "2020-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında keçirdiyi müsabiqənin qalibi fəxri adına layiq görülmüş gənclərə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Fəxri diplomu, Döş nişanı və vəsiqəsi təqdim edilmişdir.

Vurğulanıb ki, nazirlik, komitə və təşkilatların dövlət qulluqçularının Ağbulaq İstirahət Mərkəzində istirahətlərinin təşkili, muzeylərimizin ziyarət edilməsi, yaşıllıqlar zolaqlarında ağaclara aqrotexniki qulluq göstərilməsi və sair tədbirlər məhz Həmkarlar İttifaqı tərəfindən ardıcıl surətdə uğurla həyata keçirilir.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində keçirilən iclası giriş sözü ilə açan xidmətin rəisi Ramin İsmayılov bildirib ki, 2021-ci ilin 6 ayı ərzində də əhalinin və digər istehlakçıların fasiləsiz, təhlükəsiz təbii qazla təchizatının təmin olunmasına xüsusi diqqət yetirilmişdir. Muxtar respublika üzrə təbii qaz istehlakçılarının 1 iyul 2021-ci il tarixə ümumi sayı 91884 olmuşdur ki, bunun 89054-ü əhali abonent, 2830-u qeyri-əhali abonentdir.

Muxtar respublikanın şəhər və rayon ərazilərində ilin 6 ayı ərzində daxil olan müraciətlərə əsasən cəmi 650 ədəd mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 624-ü əhali abonent və 26-sı qeyri-əhali abonentdir.

Cari ilin 6 ayında qaz təsərrüfatında istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanılmış, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülmüş, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilmiş, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilmiş, təbii qaz istehlakçılarına əhali və qeyri-əhali qrupundan olan abonentlərə, müəssisə və təşkilatlara (özəl sektora) istehlak olunan təbii qazın dəyərinin ödənilməsi üzrə bildirişlərin, üzləşmə aktlarının və elektron vergi hesab-fakturalarının vaxtında verilməsi təşkil olunmuş, eyni zamanda qaz təsərrüfatında, xüsusilə qaza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə ixtisas hazırlığına cəlb olunmuşlar.

Naxçıvan Muxtar Respublikası qaz təsərrüfatının istismarında olan şkaf tipli müxtəlif markalı qaztənzimləyici qurğulara, qaztənzimləyici məntəqələrə, texnoloji avadanlıqlara texniki xidmət göstərilmiş və istismara yararlılığı yoxlanılmışdır.

Qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi və sabit ehtiyat fondunun yaradılması diqqət mərkəzində saxlanılmışdır.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyində keçirilən tədbiri giriş sözü ilə agentliyin direktoru Vüqar Babayev açaraq bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra hər bir sahədə olduğu kimi, dini sahədə də ciddi dönüş yarandı, xalqımızın dini inancları uğurlu siyasət üzərində quruldu. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dövlətin din sahəsində mövcud konsepsiyasını həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasını, "Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu"nu, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi haqqında Əsasnaməni, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman, sərəncam və tapşırıqlarını əsas tutaraq fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, agentlik tərəfindən yas mərasimlərinin keçirilməsi, burada çıxış və təbliğatların aparılmasının qanuni çərçivəyə salınması, din xadimlərinin vahid geyim formasına riayət olunmasına nəzarətin təşkili, dini və məzhəb ayrı-seçkiliyi zəmnində baş verə biləcək halların vaxtında qarşısının alınması istiqamətində profilaktik tədbirlər həyata keçirilmişdir. Nəticədə, rayon və kəndlərdə fəaliyyət göstərən məscidlərin də təmizliyinə ciddi diqqət göstərilmiş, məscidlərdə İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil olunaraq tolerantlıq prinsipləri ciddi şəkildə qorunmuşdur.

Bildirilib ki, 2021-ci ilin birinci yarım ili ərzində muxtar respublikamızda, digər rayon və kəndlərdə dini baxımdan heç bir mənfi hal aşkarlanmamış, muxtar respublikaya daxil olan 250 kitabdan qadağan olan 217 ədədinin agentlik tərəfindən qarşısı alınmış, yararlı olanları isə "Naxçıvan" Universitetinin kitabxanasına və məscidlərə paylanılmışdır.

Qeyd olunub ki, şəhərin Sarvanlar məscidində, həmçinin Şahbuz, Şərur, Ordubad rayonlarının məscidlərində mədrəsə tipli kurslar təşkil olunmuş və 62 nəfər mədrəsələrdə dini təhsil almışdır.

Tədbir məruzə ətrafında çıxışlarla başa çatıb.

**Xəbərlər şöbəsi**

# Birgə əməkdaşlıq haqqında memorandum imzalanıb

*İyulun 23-də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər fondlarının dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə ölkənin aparıcı könüllü təşkilatlarının rəhbərləri muxtar respublikamıza səfər ediblər.*

Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Sonra təşkilat rəhbərləri Heydər Əliyev Muzeyini ziyarət edib, ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı arasında birgə əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Cəbi Quliyev qonaqları salamlayıb, onları muxtar respublikamızda görməkdən məmnunluğunu ifadə edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu 2018-ci ildən başlayaraq gənclərin bilik və bacarıqlarının inkişafı, könüllü fəaliyyətin təbliği məqsədilə müvafiq qanunvericiliyə uyğun olaraq könüllü fəaliyyət həyata keçirir. Hazırda fondun könüllülük proqramı üzrə iştirakçılarının sayı 500-ə yaxındır. Fond bütün gənclərin milli-mənəvi dəyərlərimizə sadiq, ətraf mühitə qayğıkeş, cəmiyyət həyatında aktiv könüllülər kimi formalaşması üçün səylə çalışır. Könüllülər isə fəal təmsilçilər kimi son illərdə muxtar respublikamızda baş tutan mötəbər tədbirlərin təşkilində, bir sıra mühüm layihələrin reallaşdırılmasında yaxından iştirak edirlər.



Bildirilib ki, fond tərəfindən muxtar respublikada aidiyyəti qurumlarla birgə ekologiyamızın və təbii sərvətlərimizin qorunması istiqamətində maarifləndirmə missiyasını həyata keçirən "Ekologiya könüllüləri", sosial sahədə xidmət göstərən, sosial münasibətlərin ayrılmaz parçasına çevrilmiş "Sosial könüllülər", vətəndaşların işinin asanlaşdırılmasına təmənnasız olaraq yardım edən "Səyyar dövlət qulluğu xidməti könüllüləri" layihələri uğurla icra edilir. Sosial könüllülər ahıl və ya sağlamlıq imkanları məhdud vətəndaşları ziyarət edir, onların evlərində və həyətyanı sahələrində abadlıq və təmizlik işləri aparır, bayram və xüsusi günlərdə həmin kateqoriyadan olan insanlar üçün bayram tədbirlərinin, gəzintilərin təşkilində, onlara bayram sovqatlarının aparılmasında iştirak edirlər. Ekologiya könüllüləri isə maarifləndirmə işləri aparır, ağacəkmə kampaniyalarında, təmizlik aksiyalarında fəal iştirak edir, ekoloji monitorinqlər zamanı təcrübə toplayaraq bilik və bacarıqlarını artırırlar.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri, Bakı şəhər Halqası Könüllülər Proqramının rəhbəri Tural Hümbətov ölkəmizdə həyata keçirilən könüllülük fəaliyyətindən, bu istiqamətdə reallaşdırılan layihələrdən bəhs edib, memoranduma əsasən naxçıvanlı könüllülərlə gələcəkdə görüləcək işlərin əhəmiyyətini vurğulayıb.

Tədbirdə ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Azərbaycan könüllüləri arasında keçirilən "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə respublika birinciliyində I yerə layiq görülən Naxçıvan Muxtar Respublikası komandasının üzvlərinə sertifikat təqdim olunub.

Sonra naxçıvanlı könüllülər üçün könüllülük fəaliyyəti istiqamətində 3 müxtəlif mövzuda təlimlər keçirilib.

**Nail ƏSGƏROV**

2021-ci il "Nizami Gəncəvi ili"dir

# Düşüncə müstəvisində ədaləti, humanizmi təbliğ edən qadınlıq hikməti



*2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsi hər birimizdə milli iftixar, Azərbaycançılıq, vətənpərvərlik duyğuları aşılamaq, milli-mənəvi özünüdərk proseslərini daha geniş şəkildə təbliğ etmək üçün qarşımıza yeni perspektivlər açır. Nizami kimi bir dühanın yubileyinin belə təmtəraqla qeyd olunması ədəbiyyatsevərləri sevindirdi. Bu məsələnin bir də fərqli tərəfi ondadır ki, Azərbaycan 2020-ci ilə öz qılıncı ilə çəkdiyi imza və möhürünü 2021-ci ildə qələmi ilə təsdiq etməkdədir. Elə möhtəşəm qələbə belə sonsuz bir hikmət sahibinin işığı ilə tamamlana bilər.*

Bəli, Nizami Gəncəvi müdrikliyi ruhumuzun yüksək zirvədə bərqərar olması üçün lazımdır. Hələ XV əsrdə Sultan Murad xan oğluna nəsihətində qələm və qılınc tərəzisinin gözünü daim düzgün tutmağı nəsihət edir. Çünki "tərəzini doğru tutsan, Allah-Taala da sənə doğru nəzər edər", – deyirdi. Məhz qılınc və qələmin tarazlığını qoruya bilən Fateh Sultan Konstantinapolu fəth edib tarixin çarxını dəyişdi. 2021-ci il də Azərbaycan tarixində tərəzinin gözləri arasında "ədaləti" bərpa etmək üçün "Nizami Gəncəvi ili" elan olundu. Əlbəttə, necə ki, sonsuzluğu bir ana sığdırmaq olmur, eləcə də Nizami hikmətini bir illə ehtiva etmək mümkün deyil. Mütəfəkkir haqqında o qədər dəyərli əsərlər, tədqiqatlar var ki, onları oxumağın özünə bir il bəs eləməz. Mən onların bəzilərindən bəhrələnərək Nizaminin hikmət dünyasından qollu budaqlı, həmişəyaşıl ağaca bənzəyən, sadəcə, bir-iki yarpağa diqqət çəkmək istəyirəm. Bələdçim də Şirin olacaq, "Xosrov və Şirin"in qəhrəmanı. Nizami Gəncəvi düşüncə müstəvisində onu tarazlamağa və ədaləti bərpa etməyə çalışır. "Xəmsə"də iki cür qadın obrazı var – kişi obrazını açan, bir növ onun bəzəyi olan və qadın kimliyini, qadınlıq hikmətinin öz dərinliyini açan obrazlar. Buna gözəl nümunə kimi Şəkər və Şirini göstərmək olar. Onlardan birinin gözəlliyi də, bacarığı da bu fani dünya qədərdir, digərinin varlığı isə insanlığın tən yarısıdır.

Nizaminin poemalarında qadın obrazları məhz kamilləşmə prosesinin əhəmiyyətli tərəfi, aparıcı qüvvəsidir. Görkəmli nizamişünas Həmid Araslının qənaətinə görə, Şirin dahi Nizami tərəfindən son dərəcə məharətlə, hərtərəfli işlənmiş, dünya ədəbiyyatı tarixində xüsusi yeri olan bir obrazdır. Belə yüksək ağıllı və müsbət təsvir edilən qadın obrazlarına Qərbi Avropada sonrakı əsrlərdə Şekspirdə təsadüf edirik:

*Mən gövhərəm, neçin gərək əksiləm,*
*Çağrılmamış gedəm, məgər mən yeləm?*

İki misrada şair qadının həm dəyərini vurğulayır, həm də iradə və hökm sahibi olduğunu bəyan edir. O, şəxsiyyəti, məqsədi və mənəviyyatı bəlli olan yüksək bir insan obrazıdır.

"Xosrov və Şirin" də ön planda iki dövlət var. Bir tərəfdə hökmdar Hörmüzün ölkəsidir ki:

*Ədalətdə onun qüsuru yoxdur,*
*Gözlər kədərsizdi, könüllər toxdu.*
*Oldu ədalətlə yer üzü abad,*
*İnsanlar oldular zülmdən azad.*

Digər tərəfdə isə

*Dərbənd dənizinin bir sahmanında*
*Bir gözəl ölkə var dağlar yanında.*
*Şahzadə qadındır orda hökmran,*
*Yayılmış qoşunu İsfahanacan.*

Biri kişinin, digəri isə qadının –"cürətdə kişidən heç geri durmayan, böyük olduğundan Məhin Banu"nun idarə etdiyi dövlət. Hər ikisinin varisi var. Hörmüzün taxt-tacı Xosrova, Məhin Banunun isə Şirinə mirasdır. Onu da əlavə edək ki, söhbət məhz iki eyni səviyyəli dövlətdən gedir və bunu Məhin Banu öz nəsihətində də vurğulayır:

*Əgər o, aydırsa, biz afitabıq,*
*O, Keyxosrov, bizsə Əfrasiyabıq.*

Bəli, dahi şair incə bir yanaşma ilə həm də iki qonşu milləti müqayisə edir və bir növ, onların inkişaf istiqamətlərini izləmək üçün kökdən, təməldən başlayır. Hər iki millətin hökmdarı özünə layiqli, dövlətin, xalqın gələcəyini, firavanlığını təmin edəcək bir varis yetişdirməyə çalışır, nəsihətlər verir. Yəni poema ədalətin bərqərar olduğu iki fərqli məkandan başlayır. Elə bu başlanğıc məqamda da hər ikisində müəyyən yoldan çıxma, düşüncəsizliyin, hisslərin ağır gəlməsi halı baş verir. Xosrov kəndliyə zülm edir və atası tərəfindən cəzalanır. Şirin isə Şapurun sözlərinə uyub bir anlıq həvəs ilə Xosrovun yanına qaçır. Gəncliyin səhvini hər ikisi edir və məhz bu nöqtədən başlayaraq yollar açılır. Xosrov yoluna düzəlmir və eyş-işrətə aludə olur, Şirin isə haqq yolundan çıxmır və kamilliyə yönəlir. Əslində, Xosrovun hikməti məhz Şirindən öyrənməsi bir təsadüf deyil. Fəlsəfə tarixinə baxanda şahid olursan ki, bir əzəmətli ideyanın formalaşmasında və yeni təkanla irəli getməsində qadın təfəkkürünün mahiyyəti böyükdür. Üstəlik, nəzərə almaq lazımdır ki, bir sıra görkəmli filosofun ustadları arasında qadın filosofların da rolu böyük olmuşdur.

Burada maraqlı bir haşiyə çıxmaq istərdim. Müdrik qadın öz dövrünün, mühitinin simasıdır. Vurğulanmalı olan daha bir əhəmiyyətli məqam isə belə müdrik qadının məhz Azərbaycan torpağının övladı olmasıdır. Şirin hökmdardır, qadındır, deməli, bəzilərinə görə zəifdir, aldatmaq, yoldan çıxartmaq olar. Lakin Məhin Banunun nəsihətləri, Şirinin ona cavabları və bütün sonrakı proseslər göstərir ki, söhbət adi bir qadından deyil, bəşəriyyətin yarısı olmağa layiq olan qadından gedir. Nəhayət, bir şeyə də diqqət yönəldək ki, məhz orta əsrlərdə, İslam sivilizasiyasının qurulduğu bir çağda Azərbaycan müdrikləri, sənətkarları, alimləri əvəzedilməz rol oynayıblar – istər Vətənimizin öz ərazisində, istərsə də başqa ölkələrdə fəaliyyət göstərməklə. Orta əsrlər İslam düşüncə tarixinin qızıl dövründə yaşamış Nizami bunu, təbii ki, gözəl bilirdi və Azərbaycanın mənəvi qüdrətini belə nümayiş etdirir. Dahi şair Şirini Xosrovun eşqinin obyektindən daha çox, öz cəmiyyətinin siması kimi təsvir edir. Məhz buna görə, Şirin hamımız üçün doğmadır, əzizdir.

Yeri gəlmişkən, tədqiqatçıların belə bir əhəmiyyətli fikrini qeyd edək ki, "Xosrov və Şirin"dən ilhamlanaraq yazılmış, lakin milli heysiyyətin ağır gəldiyi poemalarda Fərhad obrazı ön planda durur. Bunu düşünən oxucuda istər-istəməz sual yaranır: nə üçün Şirin Fərhadı yox, Xosrovu seçdi?! Axı bununla o həm də öz milləti üçün bir yaxşılıq etmiş olardı?! Məsələ burasındadır ki, Şirin Fərhadı görəndə, artıq ürəyində Xosrovun eşqini daşıyırdı. Lakin Şirin Fərhada belə bir xəyanəti rəva görmədi – ürəyində başqasının sevgisini daşıdığı halda onun hisslərinə cavab vermədi. Şirin Xosrova deyil, öz mənliyinə, öz mənəviyyatına sədaqətini qoruyub saxladı. Belə ümumiləşdirmə aparsaq, poeziya dünyasının dahisi Nizami Gəncəvinin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi, heç vaxt qiymətini, etik təsirini itirməyən əlvan söz, dərin fəlsəfi fikir, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə işıq salan sönməz məşəldir. Mütəfəkkir şairin ədəbi irsinin təbliği bütün dövrlər üçün öz aktuallığını qoruyur, ədəbiyyatşünasların qarşısında onun araşdırılıb daha sanballı mənbələrin ortaya qoyulmasını bir tələbə çevirir. Bu mərhələ orta məktəbdən başlasa da, onun geniş miqyasda inkişaf etdirilməsi üçün hamılıqla üzərimizə düşən məsuliyyəti yüksək səviyyədə yerinə yetirməliyik.

**Aytac CƏFƏRLİ**

# Dispanserizasiya tədbirləri aparılır

***Muxtar respublikada Azərbaycan Respublikasının müdafiəsində sağlamlıqlarını itirən vətəndaşların dispanserizasiyası tədbirləri həyata keçiriləcək. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planı hazırlanıb.***



"Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası" publik hüquqi şəxsin və rayon mərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırılıb ki, rayonlarda və Naxçıvan şəhərində Azərbaycan Respublikasının müdafiəsində sağlamlıqlarını itirən vətəndaşların adlı siyahısı qısa müddətdə tərtib edilsin. Həmin şəxslər arasında profilaktik tibbi müayinələrin aparılması məqsədilə "Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası" publik hüquqi şəxsi və rayon mərkəzi xəstəxanalarında terapevt, cərrah, nevropatoloq, oftalmoloq və stomatoloqdan ibarət həkim briqadaları yaradılsın və onların iş qrafiki tərtib edilsin. Qrafikə uyğun olaraq Naxçıvan şəhərində və rayonlarda kütləvi profilaktik tibbi müayinə tədbirlərinə başlanılsın. Ehtiyac olan hallarda xəstələr konsultasiya məqsədilə yüksəkixtisaslı tibb müəssisələrinə və dispanserlərə göndərilsin, onların vacib laborator-diaqnostik müayinələri başa çatdırılsın.

Naxçıvan şəhərindəki dispanserlərin və yüksəkixtisaslı tibb müəssisələrinin baş həkimlərinə Azərbaycan Respublikasının müdafiəsində sağlamlıqlarını itirən vətəndaşların müayinə və müalicə tədbirlərinə nəzarətin daha da gücləndirilməsi, dispanserizasiya tədbirlərinin bu il oktyabrın 30-dək başa çatdırılması, müayinələrin nəticəsi barədə Səhiyyə Nazirliyinə yazılı məlumat verilməsi ilə bağlı tapşırıqlar verilib.

Qeyd edək ki, artıq bu tədbirlərin icrasına başlanılıb. Həkim briqadaları yaradılıb və ay ərzində qrafikə uyğun olaraq kütləvi profilaktik tibbi müayinə tədbirləri həyata keçirilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

***AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin yarım ilin yekunlarına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan mühüm vəzifələrə həsr olunmuş iclası olub.***

# Elm və təhsil ocaqlarında yarım ilin yekunları müzakirə edilib

Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, hesabat dövründə bölmə əməkdaşlarının, ümumilikdə, 378 elmi əsəri çap olunmuş, bir xəritə tərtib edilmişdir. Əsərlərdən 3 monoqrafiya, 49 məqalə, 50 konfrans materialı xaricdə nəşr olunub. Məqalələrin 33-ü impakt faktorlu jurnallarda çapdan çıxmışdır. "Elmi əsərlər" və "Axtarışlar" jurnallarının hər birinin 2 nömrəsi nəşr edilib. Bölmə əməkdaşlarının müxtəlif qəzetlərdə və internet portallarında məqalələri dərc olunub, 30 əməkdaş 35 beynəlxalq tədbirdə məruzə edib. İlin birinci yarısında AMEA Naxçıvan Bölməsi üzrə 2 beynəlxalq səviyyəli Qrant layihəsinin icrası davam etdirilib.



Bölmə 20-dən çox elm və təhsil mərkəzi və bir çox ölkələrin alimləri ilə sıx elmi əlaqələrdə olmuş, 15 elmi konfransa ev sahibliyi etmişdir. Əlamətdar hadisələrlə əlaqədar 8 tədbir, oxunması zəruri olan 5 kitabın müzakirəsi və 8 təqdimat keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmalara başlanılmış, "Naxçıvan" jurnalının Qars müqaviləsinin 100 illiyinə həsr edilən nömrəsi üçün elmi məqalələr hazırlanaraq sistemləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti ilə birgə Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit olunmuş ərazisinin xəritəsinin ilkin variantı hazırlanmışdır.

Çıxışda Azərbaycan Milli Elmlər Akademiyası prezidentinin məktubu nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsində YUNESKO səviyyəli "İlandağ" geoparkının yaradılması və onun Qlobal Geoparklar Sisteminə və Ümumdünya İrsi Siyahısına salınması ilə bağlı həyata keçirilən layihə çərçivəsində görülən işlərdən də bəhs edilib.

Qeyd olunub ki, əməkdaşlardan 1 nəfər elmlər doktoru dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş, 4 nəfər isə doktorluq dissertasiyalarını bitirərək uyğun müdafiə Şuralarına təqdim etmişdir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş 5 ixtisas üzrə təhsil alan tələbələrin iştirakı ilə seminarlar, açıq dərslər, laboratoriya məşğələləri keçirilmiş, elmi dərəcəsi olan 50 əməkdaş muxtar respublikanın 29 ümumtəhsil məktəbində 8 fənn üzrə nümunəvi dərslər tədris etmişlər. AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində uğurlu nəticələr əldə olunmuşdur.

Ötən dövrdə bölmənin 8 əməkdaşı orden, medal, fəxri fərman, diplom və sertifikatla təltif olunmuş, müxtəlif beynəlxalq təşkilatların və jurnalların üzvü seçilmişdir.

Bölmə rəhbəri Ali Məclis Sədrinin tapşırığının icrasını təmin etmək məqsədilə Nəbatat bağında və Aşağı Əylis kəndindəki və Ordubad rayonunun Əylis kəndi ərazisində yerləşən Biokimyəvi tədqiqatlar laboratoriyasında yeni və məhsuldar meyvə sortlarının əldə edilməsi və istehsalı üçün görülən işlərdən danışıb.

Sonra çıxışlar olub.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

* * *

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən iclası kollecin direktoru Asəf Ruşanov açaraq bildirib ki, 2020-2021-ci tədris ilinin II yarım ilində əyani və qiyabi şöbələrdə, ümumilikdə, 8 ixtisas üzrə 486 nəfər tələbə təhsil almışdır ki, onların da 243 nəfərini oğlan, 243 nəfərini isə qız tələbələr təşkil etmişdir. Tələbələrin 252 nəfəri ödənişli əsaslarla, 234 nəfəri isə dövlət hesabına təhsil almışlar. 2020-2021-ci tədris ilinin II yarım ili üzrə kollecdə kredit sistemi ilə təhsil alan qruplarda hər fənn üzrə təlimata əsasən ayda bir dəfə olmaqla, ümumilikdə, 3 kollokvium, semestrin sonunda yaz imtahan sessiyası çərçivəsində fənlər üzrə imtahanlar, kurikulum sistemi ilə tədris aparılan birinci kurslarda isə 3 həftədən bir olmaqla, 5 və 6 kiçik summativ qiymətləndirmə, tədris ilinin sonuncu həftəsində isə böyük summativ qiymətləndirmə keçirilib. Ümumiyyətlə, əyani şöbədə təhsil alan tələbələr üçün keçirilən imtahanlarda 29 qrup üzrə 429 nəfər tələbə iştirak edib. Onlardan 21 nəfər bütün fənlərdən 91-100 intervalında bal toplayaraq əlaçı, 64 nəfər 71-100 intervalında bal toplayaraq yarım əlaçı adına layiq görülüb. Dərsmənimsəmənin səviyyəsi 97 faiz, keyfiyyət göstəricisi isə 26,1 faiz olub. Qiyabi şöbədə bir ixtisas – Yol hərəkətinin təşkili üzrə 4 qrupda 60 nəfər yaz imtahan sessiyasına buraxılıb ki, onlardan 10 nəfər bütün fənlərdən 91-100 intervalında bal toplayaraq əlaçı, 13 nəfər 71-100 intervalında bal toplayaraq yarım əlaçı adına layiq görülüb. Dərsmənimsəmənin səviyyəsi 96 faiz, keyfiyyət göstəricisi isə 39 faiz olub. İmtahanların nəticələri ümumiləşdirilib və tələbələrin hazırlıq səviyyəsini yaxşılaşdırmaq, lazımi nəticələr çıxarmaq üçün təhlil edilib.



Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Telli MƏMMƏDOVA**

# "Qızıl kitab"a doğru uğur yolu



***Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi Nicat Əlizadə və Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi, şahmatçı Nazlı Hümbətovanın adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazıldı və onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görüldülər. Qeyd edim ki, "Qızıl kitab" 2012-ci ildə istedadlı gənclərə dövlət qayğısını daha da artırmaq, onların intellektual və yaradıcılıq potensialını inkişaf etdirmək üçün təsis edilib. Təqaüd təhsil, idman, mədəniyyət, bədii yaradıcılıq və digər sahələrdə fərqlənən 25 yaşadək gənc istedadlara verilir. Bunun sayəsində də gənc nəsil üçün yeni maddi-mənəvi imkanlar, karyera istiqamətləri yaranır. Nəticədə, müxtəlif sahələri əhatə edən sağlam rəqabət mühiti formalaşır, onlar hədəf və məqsədləri yolunda əlavə motivasiya əldə edirlər.***

### *Karyera mühiti*

Haqqında məlumat verəcəyimiz şahmatçı Nazlı Hümbətova Naxçıvan Şahmat Federasiyasının ən perspektivli yetirmələrindən biridir. Muxtar respublikamızda şahmatın inkişafı istiqamətində görülən işlər, tətbiq olunan yeniliklər və uğurlar nəticəsində belə istedadlar üzə çıxır. İdmançıların ölkə və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir, 2019-cu ildə federasiyanın sədri Seymur Talıbovun təşəbbüsü ilə yaradılan mükafat fondu isə məşqçi və idmançı heyəti üçün böyük stimula çevrilib. Bu il Naxçıvanın şahmat üzrə Azərbaycan çempionatına ilk dəfə olaraq ev sahibliyi etməsi yüksək etimad, böyük uğur kimi qiymətləndirilir. Nazlı ilə birgə daha iki şahmatçımızın belə bir nüfuzlu yarışda iştirakı, sözsüz ki, onların təcrübə artımına səbəb oldu.

### *Qazanılan uğurlar*

Yeniyetmə şahmatçımızın uğurlarına xronoloji ardıcıllıqla nəzər yetirək: – Nazlı 2014-cü ildə Gürcüstanda keçirilən yoldaşlıq görüşündə I, "Naxçıvan-2014" beynəlxalq şahmat festivalında II, 2015-ci ildə Yunanıstanın Kovala şəhərində keçirilən beynəlxalq yarışda III, Azərbaycan çempionatının seçmə yarışlarında I, Manisa şəhərində keçirilən beynəlxalq yarışda I, 2016-cı ildə Ordu şəhərində keçirilən beynəlxalq yarışda II, "Naxçıvan - 2016" beynəlxalq şahmat festivalında III, 2017-ci ildə Türkiyənin Ankara şəhərində keçirilən beynəlxalq yarışda qızlar arasında I, Malatya şəhərində keçirilən beynəlxalq yarışda qızlar arasında II, Ordu şəhərində keçirilən beynəlxalq yarışda II, Azərbaycan çempionatına seçim mərhələsində I, 2018-ci ildə Türkiyənin Malatya və Hatay şəhərlərində keçirilən beynəlxalq turnirlərdə II, III, "Naxçıvan-2018" beynəlxalq şahmat festivalında II, 2019-cu ildə Türkiyənin Ankara və Sivas şəhərlərində keçirilən beynəlxalq turnirlərdə III, II, Azərbaycan birinciliyində III, 2020-ci ildə Azərbaycan birinciliyinin seçmə yarışlarında II yerlərin sahibi olub, dəfələrlə muxtar respublika səviyyəli yarışlarda qalib adını qazanıb.

### *Həyat hekayəsi*

16 yanvar 2007-ci ildə Naxçıvan şəhərində dünyaya gəlib. Ailənin yeganə övladıdır. Birinci sinifdən etibarən hazırkı məktəbində orta təhsilini davam etdirir. Anası Günel Hümbətovanın dediyinə görə qızı 6 yaşından etibarən şahmat məşğələlərinə qoşulub və zaman keçdikcə oyun fəlsəfəsinin xarakteri ilə bütünləşdiyinin fərqinə varıb. Çünki böyüdükcə ağıllı, məntiqli düşüncə və davranışları, məqamında göstərdiyi reaksiyalar onu bir çox həmyaşıdından fərqləndirirdi.

Adı qədər nazlı bir qız olsa da, görünür, qətiyyət və cəsarət kimi xüsusiyyətləri də şahmatla kəşf edib. Ümumi yanaşsaq, şahmat nə qorxaqların, nə də gücsüzlərin oyunudur. Üstün zəkası olanların səhnəsidir. Əyləncəvi xüsusiyyətləri isə yalnız oyunçunun beynində yaratdığı düşüncələrin harmoniyasına bağlıdır. Bəlkə də, şahmatın elit məşğuliyyət kimi insan həyatına daxil olmasına başlıca səbəb məhz budur. Anası etiraf edir ki, təhsilə daha çox vaxt ayırması üçün onu şahmatdan bir müddət uzaqlaşmağa razı salmaq istədim. Doğrusu, gələcəkdə qızımı həkim peşəsində görmək arzum da var idi. Gəl ki, Nazlının qəlbindəki bu sevda onu israrla öz fikrində saxladı. Üzərindən illər keçdikcə müşahidə etdim ki, şahmatla məşğuliyyəti onu lazımi işlərdən qətiyyən yayındırmır. Əksinə, yeni biliklər əldə etməsinə kömək edir. Hazırda rus və ingilis dillərində öz biliklərini daha da təkmilləşdirir. Əlavə olaraq üzgüçülüklə məşğuldur. Şahmatçı karyerasını uzun müddətə sığdırmaqla fərqli mədəniyyətlərlə tanış olmaq, dünyagörüşü və biliklərini zənginləşdirmək niyyətindədir.

Söhbətimizin sonunda göstərilən diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığını ifadə edən Günel xanım əminliyini bildirdi ki, bu yüksək etimad qızının gələcək həyat və fəaliyyətinə öz müsbət təsirini göstərəcək.

### *1 söhbətdən 3 nəticə...*

Nazlı ilə bağlı düşüncələri birbaşa valideynindən öyrənmək cəhdim ortaya bəzi maraqlı nüansları çıxardı. Birincisi, şahmat ixtisasca həkim olan və qızını bu peşədə arzulayan Günel xanımı "bir pasiyenti kimi sağaltdı". Yəni hazırkı vəziyyət onu qətiyyən narahat etmir. İkincisi, bir azyaşlının ilkin məşğuliyyət mexanizmi onun xarakterik xüsusiyyətlərinə də təsir edir. Deməli, övladlarımıza bu işdə ya dəstək, ya da istiqamət olmalıyıq. Üçüncüsü və ən əsası, bir ananın sevinc və qürur dolu səsini eşitmək, minnətdarlıq duyğularından agah olmaq hadisənin əsas mahiyyətindən xəbər verirdi: "İnsan əməyinə verilən dəyər, qiymətləndirmə bəzən bütün uğurların cəmindən üstün olur".

**Emil SƏMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ildə taxıl biçininin yekununa dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 985 | 985 | 2722 | 27,6 |
| 2. | Şərur rayonu | 3866 | 3866 | 15655 | 40,5 |
| 3. | Babək rayonu | 10823 | 10823 | 33440 | 30,9 |
| 4. | Ordubad rayonu | 1597 | 1597 | 4556 | 28,5 |
| 5. | Culfa rayonu | 5638 | 5638 | 16363 | 29,0 |
| 6. | Kəngərli rayonu | 5998 | 5998 | 18205 | 30,4 |
| 7. | Şahbuz rayonu | 1531 | 1531 | 4024 | 26,3 |
| 8. | Sədərək rayonu | 2283 | 2283 | 8407 | 36,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32721** | **32721** | **103372** | **31,6** |

# Təbiətin əvəzsiz sərvəti olan meşələri yanğından qoruyaq

***Təbiətə xüsusi gözəllik bəxş edən meşələrimizin yanğından qorunması ən qiymətli sərvətlərimizdən birinin qorunmasıdır. İnsanların həyat fəaliyyətində, onların sağlamlığında mühüm rol oynayan meşələrin də daim qayğıya ehtiyacı vardır.***



İnsanların həyat fəaliyyətində vacib əhəmiyyəti olan meşələrin yanğından qorunması istiqamətində qabaqlayıcı tədbirlər həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tərtib etdiyi tədbirlər planına uyğun olaraq muxtar respublika ərazisində yerləşən meşələrdə, yeni salınmış yaşıllıq zolaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində vətəndaşlar tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl olunması məqsədilə maarifləndirmə və profilaktik tədbirlər həyata keçirilmişdir. Həmçinin isti yay günlərində vətəndaşların istirahət üçün üz tutduğu məkanlardan biri olan Batabat meşəsində yanğın təhlükəsizliyi qaydalarına əməl olunması məqsədilə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin əməkdaşları tərəfindən gündəlik olaraq patrul xidmətləri təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi isti yay günlərində meşələrimizin yanğınlardan qorunması üçün vətəndaşlara aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir:

Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə mühafizə işçiləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və ona ciddi riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar.

Meşə sahələrində baş verən yanğınlar odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmasından baş verir.

Meşədə və ya meşəətrafı sahələrdə yandırılmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması və küləkli hava şəraitində tonqal qalamaq meşə yanğınlarına səbəb olar. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir. Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və başqa yanar mayelərlə bulaşmış əsgi və digər materialları atmaq olmaz. Meşədə torf və bitki köklərinin yandırılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Meşəyə istirahət edən insanlar tərəfindən tullantılar və eləcə də şüşə qabları, şüşə qırıntılarını atmaq olmaz. Əks halda, günəş şüasından təsirlənən şüşə qablar və qırıntıları yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

*Yuxarıda qeyd olunanlarla bağlı hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** nömrəli xidməti telefonlarına zəng etməyi unutmayın.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*Mütəxəssis sözü*

# Tərəvəz bitkilərinin təkrar əkininə diqqət artır

Muxtar respublikada əhalinin yerli və ekoloji cəhətdən təmiz meyvə-tərəvəz məhsullarına olan tələbatını ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Dövlət proqramının başlıca məqsədi muxtar respublika əhalisini meyvə-tərəvəz məhsulları ilə təmin etməkdən ibarətdir. Sevindirici haldır ki, bu gün muxtar diyarımızda aqrar bölmənin inkişaf etdirilən bütün sahələri içərisində tərəvəzçiliyin də xüsusi yeri vardır. Daim qida rasionumuzda mühüm yer tutan tərəvəz məhsulları insanların qidalanmasında mühüm rol oynayır.

Qeyd edək ki, tərəvəz əkinləri birillik, ikiillik və çoxillik formalarda olmaqla, 3 qrupa bölünür. Tərəvəz bitkiləri vegetasiya



müddətlərinə görə tezyetişən (faraş) və gecyetişən olur. Tezyetişənlərin vegetasiya müddəti 25-40, gecyetişənlərin vegetasiya müddəti isə 80-120 günə bərabərdir.

Muxtar respublikamızın torpaq-iqlim şəraiti tərəvəz bitkilərinin ildə iki dəfə, yəni təkrarən əkilməsinə imkan verir. Bu sahəyə göstərilən hərtərəfli dövlət dəstəyinin nəticəsidir ki, torpaq mülkiyyətçiləri bəzi tezyetişən, vegetasiya müddəti az olan tərəvəz bitkilərinin təkrar, yəni ildə iki dəfə əkilməsini həyata keçirirlər. İldə iki dəfə əkilən tərəvəz növlərindən xiyarı, səbzəni, göy lobyanı, soğan və digərlərini göstərmək olar.

Muxtar respublikamızda təkrar tərəvəz əkinlərinin keçirilməsi, əsasən, taxıl və arpa biçinindən, bəzən də yazda tezyetişən kartof məhsulunun yığımından sonra həyata keçirilir. Ötən illərdə olduğu kimi, 2021-ci təsərrüfat ilində də təcrübəli sahibkarlar tərəfindən vahid torpaq sahəsindən ikinci dəfə təkrarən əkilib yüksək məhsul götürülməsinə xüsusi önəm verilir.

Təkrar tərəvəz əkinləri iyulun 25-dən başlayaraq avqustun 20-nə qədər başa çatdırılmalı, kompleks aqrotexniki tədbirlər optimal müddətdə həyata keçirilməlidir. Torpaq mülkiyyətçiləri bilməlidirlər ki, təkrar əkinlərin aparılması üçün mexaniki tərkibi yüngül, münbit və susaxlama qabiliyyəti yüksək olan sahələr seçilməlidir. Məlumdur ki, daim əkilib-becərilən torpaqlar öz münbitliyini tədricən itirir. Münbitliyin bərpa olunması üçün əkinçilər həmin sahələri mineral və üzvi gübrələrlə təmin etməlidirlər. Ancaq münbitliyin artırılması torpağın analizinin aparılması yolu ilə həyata keçirilməli, çatışmayan üzvi və mineral maddələrin elmi əsaslara uyğun olaraq torpağa verilməsi təmin edilməlidir. Hər bir torpaq mülkiyyətçisi yüksək məhsul əldə etmək üçün torpağın analiz olunmasını diqqətdə saxlamalı, üzvi və mineral gübrələrdən tam səmərəli istifadə etməlidir. Torpaqda hansı qida maddələrinin çatışmadığını və hər hektar torpaq sahəsinə hansı gübrədən və nə qədər verilməsini müəyyən etməklə təkrar əkinlərdən yüksək məhsul götürüb bolluq yaratmaq olar.

**Xaliq ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 587